*https://doi.org/10.30546/114578.2025.10.3062*

# QƏRBİ AZƏRBAYCAN PALEOTOPONİMLƏRİNİN LİNQVİSTİK-ETİMOLOJİ TƏDQİQİ

**Sayalı Sadıqova**
*filologiya elmləri doktoru, professor*
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*sayalisadigova@yahoo.com*

**Xülasə**

Məqalədə tədqiqata cəlb edilən Qərbi Azərbaycanda türkmənşəli toponimlər, onların arxaik mənaları, yayılma arealları, fonetik və morfoloji tərkibləri, onun linqvistik və ekstralinqvistik inkişafı, dilin arxaik qatında xüsusi yeri olan və müəyyən söz formaları ilə bərpa edilən, forma və strukturuna, semantikasına aydınlıq gətirən paleotoponimik leksika elmi şəkildə araşdırılmışdır. Tədqiqatda paleotoponimlərin arealları mənbələr əsasında üzə çıxarılmış və bu toponimlərin türkmənşəli olması faktlarla sübuta yetirilmişdir. Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik-etimoloji təhlili aparılaraq müəyyənləşdirilir ki, Azərbaycanın tərkib hissəsi olan İrəvan ərazisində olan yer-yurd adları ümumilikdə türk mənşəlidir.

**Acar sözlər:** onomastika, paleotoponim, abidə, fonetika, leksika, morfoloji, türk xalqları.

# LINGUISTIC-ETYMOLOGY RESEARCH OF WESTERN AZERBAIJAN PALEOTOPONYMS

**Sayali Sadigova**
*Institute of Linguistics named after Nasimi, ANAS*

**Abstract**

The article determines that the Turkmen toponyms in Western Azerbaijan, their archaic meanings, distribution areas, phonetic and morphological structures, the expansion of the research range of onomastics, its linguistic and extralinguistic development, the paleotoponymic lexicon, which has a special place in the archaic layer of the language and is restored with certain word forms, clarifying its form and structure, and semantics, have been scientifically

investigated. The areas of the paleotoponyms involved in the study have been revealed on the basis of sources, and it has been proven with convincing evidence that these toponyms are names of Turkmen origin. A linguistic-etymological analysis of Western Azerbaijan paleotoponyms was conducted, and their place names in the territory of Yerevan, which is part of Azerbaijan, are generally a historical and cultural treasure of Turkic languages.

**Key words:** onomastics, paleotoponyms, monuments, phonetics, lexis, morphology, turkic peoples.

## ЛИНГВО-ЭТИМОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ПАЛЕОТОПОНИМОВ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

**Саялы Садыгова**
*Институт языкознания имени Насими НАНА*

**Резюме**

В статье было расследовано, что туркменские топонимы Западного Азербайджана, их архаичные значения, ареалы распространения, фонетическая и морфологическая структуры, расширение исследовательского круга ономастики, её лингвистическое и экстралингвистическое развитие, палеотопонимическая лексика, занимающая особое место в архаичном пласте языка и восстанавливаемая с помощью определённых словоформ, проясняющих её форму, структуру и семантику, подверглись научному исследованию. На основе источников выявлены ареалы распространения палеотопонимов, вовлекаемых в исследование, и убедительно доказано, что эти топонимы имеют туркменское происхождение. Проведён лингвоэтимологический анализ палеотопонимов Западного Азербайджана, а их топонимы на территории Еревана, входящего в состав Азербайджана, в целом представляют собой историко-культурное наследие тюркских языков.

**Ключевые слова:** ономастика, палеотопонимы, памятники, фонетика, лексика, морфология, тюркские народы.

### Giriş/Introduction

Qərbi Azərbaycanda türk mənşəli toponimlər, onların arxaik məna çalarının etimoloji linqvistik baxımdan araşdırılması Azərbaycan dilçiliyində aktual problemlərdəndir. Çünki toponimlər xalqın ilkin yaranış dövrlərinin,

tarixinin, coğrafiyasının müəyyənləşdirməsinə imkan verən qədim abidələrindən hesab edilir. Bu abidələrin kökündə xalqımızın milli təfəkkür tərzi, adət-ənənələri, etnik tərkibi, qədim tarixi və coğrafiyası yaşamaqdadır. Qədim türk dilləri üçün səciyyəvi olan leksik-semantik əlamətləri, ən qədim elementləri özündə qoruyub saxlayan paleotoponimlər xalqımızın etno-siyasi və kulturoloji mədəniyyətinin müəyyənləşdirilməsinə zəngin faktlar verir. Bu baxımdan M.Hüseynovanın "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili" [Hüseynova, 2023] monoqrafiyası Azərbaycan dilçiliyinin ən aktual probleminə həsr olunmuşdur. Monoqrafiya giriş, iki fəsil və nəticədən ibarətdir. Girişdə Qərbi Azərbaycanda türkmənşəli toponimlər, onların arxaik mənaları, yayılma arealları, fonetik və morfoloji tərkibləri, linqvistik və ekstralinqvistik inkişafı, dilin arxaik qatında xüsusi yeri olan və müəyyən söz formaları ilə bərpa edilən, forma və strukturuna görə fərqlənən, semantikik cəhətdən inkişaf edən paleotoponimik leksikanın elmi şəkildə araşdırılmasının zəruriliyi diqqətə çatdırılır.

Əsərdə Qərbi Azərbaycanda (indiki Ermənistanda) türk mənşəli paleotoponimlərin tarixi kökləri, fonetik, leksik, morfoloji tərkibi və semantik resursları paleotoponimik müstəvidə araşdırılmışdır. Dilin arxaik qatında öz əksini tapan paleotoponimik leksikaya əsaslanaraq ümumi türkoloji kontekstdə qərbi Azərbaycanda milladdan öncədən müxtəlif türkdilli etnosların məskunlaşdığı təkzib edilməz faktlarla sübuta yetirilmişdir"[Hüseynova, 2023].

Böyük bir ərazini əhatə edən qədim türklərin tarixi torpaqlarına verilən adlarda ən qədim dil elementləri, xalqların soykökünün tarixi özünü inikas etdirir. Məhz bunlar nəzərə alınaraq qərbi Azərbaycanın paleotoponimləri sistemli şəkildə araşdırılmışdır. M.Hüseynova yazır ki, qərbi Azərbaycan ərazisində elə paleotoponimlərə rast gəlirik ki, onların tərkibində həm yazıdan əvvəl, həm də yazıdan sonrakı elementlər daha yaxşı mühafizə olunmuşdur. Bu nəzərə alınaraq toponimlər vasitəsi ilə istər antik dövrlərdə, istərsə də çağdaş dövrdə xalqların mənşəyi və onların tarixi keçmişini özündə əks etdirən qərbi Azərbaycan toponimlərinin fonetik və morfoloji tərkibi təhlil olunmuşdur.

Əsərdə Qərbi Azərbaycanın yazıdan əvvəlki paleotoponimik sistemində "ard", "ar/az" sözlərini əks etdirən, eləcə də "arpa" derivatlı yer, yurd adlarında mühüm yer tutması və bu qəbildən olan coğrafi adların əksəriyyətinin bizim eradan əvvəlki dövrlərə aid edilməsi mənbələrdə verilən faktlarla tədqiq edilmişdir. Ermənilərin bu sözlər üzərində apardıqları etimoloji saxtakarlıqları təhlillər əsasında kökündən çürük olduğu təsdiqlənir.

“Arpa” sözünün etimologiyası araşdırılarkən birinci növbədə tarixən yüksəklik, ucalıq, dağlıq mənasını bildirən alp-ar toponimləri ilə bağlılığı *el, er* sonor samitlərinin bir-birini əvəz etməsi, cəmlik bildirən “pi” şəkilçisinin etimologiyası və bu tipli sözlərdə baş verən proseslər əsasında yazıya qədər və ondan sonrakı dövrlərdə struktur-semantik fərqlərin əmələgəlməsi müəyyənləşdirilir. Göstərilir ki, *ayı, azı, azıq, azıx* fonetik tərkibli sözlərin yaşı qədim dövrləri özündə əks etdirir. Dərələyəz mahalında mövcud olan paleotoponimlərin birinci komponentində çıxış edən ayi sözü pitikontor dövrü ilə bağlıdır. Yazılır ki, istər qərbi Azərbaycanda istərsə də türk xalqları yaşayan bölgə və coğrafiyalarda ayi komponentli toponimlərin əksəriyyətinin yaşı altı yüz min ildən çoxdur. M.Kaşğarinin “Divanın”da qeydə alınan toponimlərlə müqayisə edilərək qayı, kayı etnoslarının yaranış tarixi, daha qədim dövrdən “ayi” sözündə tarixi inkişafla bağlı olan dəyişmələr üzə çıxarılmışdır. Y-z əvəzlənməsi və q-x samitinin, ümumiyyətlə sözlərə samit əlavələri artırılaraq *azıx, azux, azıq, ayıq, ayı* fonetik tərkiblərində işlənməsi və türk dillərinin dialektlərində sabitləşməsi şərh olunmuşdur. Bu sahələrlə bağlı olan tədqiqatlar nəzərdən keçirilərək Qərbi Azərbaycanın Dərələyəz mahalında pole-toponimlərinin qədimliyi sübut edilmişdir. Əkərək toponiminin poleotürk mənşəli “aqaraq” sözündən formalaşması şərh olunur və şumeroloqların fikrinə əsaslanaraq yazılır: “*Belə ki, şumeroloqların əksəriyyəti “aqar/akar” sözünün şumercədə işləndiyini göstərmiş və həmin sözü uzun illər ümumtürk dillərində “əkin yeri” mənasını ifadə etdiyini göstərmişlər. 1935-ci ildə ermənilər “Əkərək” adlı yer-yurd adlarını öz dillərinə transkripsiya edərək “Akaradza” qoymuşlar. Biz şübhə etmirik ki, aqr, əkər, akar fonetik tərkibli coğrafi termin səciyyəli leksik vahid türk dilindən (5-6 min il budan əvvəl − M.Hüseynova) şumercəyə keçmişdir*” [Hüseynova, 2023:45].

Tədqiqatda aqr/əkər/akar fonetik tərkibli coğrafi terminlərin leksik vahid kimi şumercəyə keçməsi və sonralar da toponimlərin yaranmasında fəal iştirak edən bir element kimi rolu müəyyənləşdirilmişdir. Bununla yanaşı aqar/əkər sözünün türk dillərinin yazıyaqədərki dillərində relyef bildirən coğrafi termin kimi işlənməsi, sonrakı dövrlərdə etnotoponimə transformasiya edilməsi zəngin dil faktları ilə tədqiq olunmuşdur. Erməni saxtakarlarının Ərgəz paletoponimini dəyişərək Arqazan formasına salması, bu toponimi təşkil edən “ər”, “kas”, “gəz”, “kuş”, “qaz” komponentli qədim coğrafi adların əksəriyyətinin eradan əvvəlki minilliklərdə formalaşması mənbələr əsasında şərh olunaraq türk mənşəli toponimlər sırasına aid edilmişdir.

Qərbi Azərbaycan paleotoponimlərinin tərkibində mühafizə olunan və arxaik məna daşıyan elementlər qədim türk abidələri və qohum türkcələrin materialları ilə müqayisə edilərək səciyyəvi cəhətləri müəyyənləşdirilmişdir. Qərbi Azərbaycanın coğrafi adlarının mühüm hissəsini təşkil edən "art" komponentli toponimlərin paletnonimik müstəvidə linqvistik təhlili aparılmışdır. Qeyd edildiyi kimi "art" coğrafi termini Azərbaycan dilinin yazıya qədərki leksik-semantik elementlərindən biri kimi qərbi Azərbaycanın türk mənşəli toponim adların yaranmasında aktiv iştirak edən semantik arxaizmdir. Yazıyaqədərki dövrdə türk mənşəli arxaizmlərin formalaşmasında iştirak etməsi və xalqın etnogenezisinin təyin edilməsində rolu faktlarla əsaslandırılmışdır. "Art+aş (us)+at" elementləri əsasında yaranan Artaşat toponiminin düzəlmə modelləri təyin edilmişdir. Müəyyənləşdirilir ki, birinci komponentdəki "art" morfoloji göstəricisi qədim türk dillərində cəmlik bildirən morfem funksiyası daşımış və müasir tuvin, şor, qırğız, kumık, altay və s. dillərdə "keçid, dağ keçidi, aşırım, dağ aşırımı" mənasında işlənir. Bu element qərbi Azərbaycanda və Naxçıvan ərazisində mövcud olan "Salvart" oroniminin son komponentində də rast gəlinir. Əsasən toponimlərin formalaşmasında iştirak edən "art" və "sal" elementləri türk dilləri üçün ortaq leksik vahid kimi ta qədim dövrlərdən işlənmişdir. "Ararat" toponiminin tərkibində müəyyən fonetik hadisələrə, yaxud da erməni dilinin assimilyasiyasına məruz qalsa da müxtəlif variantlarda türk dillərində işlənmə formaları şərh olunmuşdur. "Ararat" toponimin antik şəklinin "Arart" olması və ermənilərin söz ortasına "a" səsi əlavə etməsi faktlarla təsdiq edilmişdir. Türk mənşəli Arat toponiminin "ar" igid, ər, qəhrəman, cəsur adam anlamında, "art" sözünün isə hündür dağ yamaclarında məskunlaşmış oba, kənd mənasının ifadə etməsi verilmişdir. Eləcə də "Urartu" toponiminin fonetik tərkibində qədim "atr" sözü işlənmiş və sözün əvvəlinə və sonuna "u" saitinin artırılması ilə dəyişdirilməsi müəyyənləşdirilmişdir. Tədqiqatda "Artaşeş", "Artaşur" kimi şəxs adlarına türk mənşəli art sözünün artırılması və daşıdığı mənalar, "Artaşed" paleotoponiminin ikinci hissəsində gələn "as" və "aş" etnonimi haqqında dilçilik əsərlərində aparılan tədqiqatlar müqayisə edilərək yazılır: *"Artaşat" paleotoponiminin ikinci hissəsində gələn "aş" sözü türk etnosuna aiddir, yəni "s", "ş" əvəzlənməsi ilə işlənən variantıdır və türkcələrdə o cümlədən Azərbaycan dilinin dialekt arealında əskidən bu günə kimi "ş", "s" əvəzlənməsi qanuni, fonetik haldır. Bəlkə də dünyada ermənilər yeganə və hibrid etnik qruplardan biridir ki, onların soykökündə, həm də toponim yaradıcılığında "aş" türkmənşəli etnoslarda iştirak etməmişdir və iştirak*

*edənlər isə onların söz oğurluğundan başqa bir şey deyildir”* [Hüseynova, 2023:54].

Qərbi Azərbaycan ərazisində “art” coğrafi termini ilə yaranan Artavul, Artiz, Artik, Atriqsu kimi toponimlərin etimologiyası verilmişdir. Tədqiqatda Qərbi Azərbaycanda “ay” komponentli paleotoponimlərin tarixi-etimoloji təhlili aparılmışdır. Qərbi Azərbaycanda, eləcə də türkdilli xalqların yaşadığı bölgələrdə “ay” komponentli yer-yurd adlarının etimologiyası verilmişdir. Qeyd edilir ki, Azərbaycan antroponimik sistemində ay və günəş, ay və gün, ay və su komponentləri əsasında türk dillərində xüsusi adlar yaranmışdır. Qərbi Azərbaycan toponimik sistemində Hayastan, Ayazlı, Ayarlı, Aydan, Aydaman toponimləri geniş şəkildə işlənmiş, Hayastan toponimini təşkil edən “H+ay+as+tan” komponentləri ayrı-ayrılıqda mənbələrə əsaslanaraq təhlil edilmişdir. Qeyd edilir ki, “H” samiti erməni dili üçün səciyyəvi deyildir. Bu samit səsi əski türkcələrdə işlənən “ay” sözünə artırılaraq mənimsənilmişdir. “Ay” sözünün əski türkcədə tanrıçılıq simvoluna çevrilməsi qədim abidələrdə öz əksini tapmışdır. Ermənilərdə isə heç bir abidədə bu simvol öz əksini tapmır. “Ay” sözünə müəyyən samit səslər əlavə edilərək “hay”, “ayk”, “hayak”, “haykak” kimi transformasiya etsələr də “ay” sözü öz müstəqilliyini bütün toponimlərdə qoruyub saxlamışdır. Orxon yazılarında, M.Kaşğarinin “Divan”ında “ay” və “ər” leksemlərinin müstəqil leksik vahid kimi işlənməsi bu fikri bir daha təsdiq edir” [3].

Qərbi Azərbaycanda işlənən “Ayrım” yaşayış məntəqəsinin dəyişdirilərək ermənicə Tıxtırovan adlandırılması və onun etimoloji təhlili verilmişdir. Qeyd edilir ki, Ay+rum+rim sözü iki leksik vahid əsasında formalaşmış və türk mənşəli etnosun kökü, genezisidır. Həmçinin “Ay” planet adı kimi Azərbaycan folklorunda gözəllik mənasında işlənməsi və “rum” hissəsində “u-i” səs əvəzlənməsi və türk dillərində qanunauyğun hal kimi dəyərləndirilmişdir. “Umay” ilahə adının türk xalqlarının yaşadığı ərazilərdə obyekt, yer adlarına verilməsi, eləcə də müxtəlif fonetik tərkiblərdə səslənməsi, oxşarlıqlar təyin edilmişdir. Linqvistik göstəricilər, türk dillərinin qrammatik qayda-qanunları əsasında yaranan toponimlərin süni yolla dəyişdirilməsi zəngin faktlarla təyin edilmişdir.

Əsərdə van komponentli toponimlərin etimologiyası xüsusilə diqqəti cəlb edir. “Van” komponentli toponimlər tarixi etimoloji aspektdə araşdırılır və elmi mənbələr əsasında sübuta yetirilir ki, bu elementli toponimlər türk mənşəlidir. Qeyd edilir ki, *“van” sözü müstəqil leksik vahid kimi dilimizdə eradan əvvəl ikinci minilliklərdən işlənmiş və elmi mənbələrdə bu və ya digər şəkildə öz əksini*

*tapmışdır. Azərbaycanda Naxçıvan, İrəvan, Mincivan, Ərkivan, Ərcivan, Sevan, Əfqanıstanda Pərvan, Baqavan, Cənubi Azərbaycanda Zəngəvan, Türkmənistanda Sirəqvan və s. onlarla toponimin ikinci komponentində işlənən "van" komponenti sübut edir ki, bu leksik vahid erməni dilinə məxsus deyildir"* [Hüseynova, 2023:71].

Azərbaycan toponimiyasında mövcud olan "van" komponentli leksik vahidlər tarixi etimoloji istiqamətdə araşdırılmış və müqayisələr əsasında işlənmə mənası dəqiqləşdirilmişdir. Məkan mənası bildirən "van" appelyativi ilə yaranan toponimlərin əksəriyyətinin məkan, yer, yurd, ölkə mənası bildirilməsi əsaslandırılmışdır. Müəllif bu qənaətə gəlir ki, "van" müstəqil söz kimi VI əsrdən çox-çox əvvəllər dilimizdə işlənmiş, bir qədər keçəndən sonra apelyativləşmiş və XIX əsrin əvvəllərində Azərbaycan dilində ermәni dilinə heç bir fonetik dəyişikliyə uğramadan transfer edilmişdir. "Van" apelyativi ilə bağlı fikirlər təhlil edilmiş və toponimik məlumatlar əsasında qədim bir tarixə malik olması faktlarla verilmişdir. Qərbi Azərbaycanda yerləşən İrəvan toponimini təşkil edən ir/ər/er sözlərinin şumercədə müstəqil işlənməsi və igid, qoçaq, cəngavər mənalarını bildirilməsi təyin edilmişdir.

"Sir/şir/çıraq/zirək" komponentli etnotoponimlərin Qafqaz arealında eləcə də Azərbaycanın Qərb bölgəsində işlənmə coğrafiyası və bununla bağlı yaranan bir sıra toponimlərin fonetik tərkibində baş verən dəyişikliklər, eradan əvvəlki dövrlərdə türk mənşəli toponim kimi yunan mənbələrinə keçərək işlənməsi və sir/siraq toponiminin tərkibində olan elementlərin etimologiyası verilmişdir. Miladdan öncə V-IV əsrlərdə yeni eranın VII-VIII əsrlərinə qədər türkdilli Siraqların tarix səhnəsində izləri, eləcə də oğuz tayfa birliklərinə daxil olması, onlarla qaynayıb-qarışması, yaşadıqları ərazilər və dil mənşəyi haqqında məlumatlara əsaslanaraq Siraq, Çıraq, Zirik kimi etnotoponimlərin Qafqazda, o cümlədən Qərbi Azərbaycanda geniş yayılması və bununla bağlı yaranan toponimlər araşdırılır. Qeyd edilir ki, Siraq paleotoponimi Azərbaycan coğrafi adlar sistemində ***ç-s-z*** əvəzlənmələrini özündə qoruyub saxlayan yer adlarıdır. Eradan öncə Siraq tayfası saqların içərisindən çıxaraq müstəqil tayfalar kimi formalaşmışdır. Qədim Şiraq toponiminin fonetik cəhətdən transformasiya istiqamətləri müəyyənləşdirilmişdir.

Zəngin faktlarla türkdilli xalqlar arasında öz qüdrətli dövlətləri ilə seçilən bu xalqların türkoloji istiqamətdə zəngin tarixi araşdırmalara əsaslanaraq miladdan öncəki dövrlərdə Siraq sözündəki sir komponentinin ***s-ş*** fonetik tərkibi ilə işlənməsi, Orxon Yenisey abidələrində və ayrı-ayrı türk dillərinin dialekt arealında işlək olması göstərilmişdir. Qeyd edilir ki, "*eradan qabaq VII*

*yüzillikdə bu etnosun adı həm də **ş** samiti ilə işlədilirdi. Tarixi mənbələrdən o da məlum olur ki, erkən orta yüzilliklərdə Siraqlar gürcülərlə müttəfiqlik əlaqələrində olsalar da, burada ermənilərin adı çəkilmir və onlar haqqında heç bir məlumat verilmir”* [Hüseynova, 2023:45].

Lakin tarixi şəxsiyyət olmuş Siraqın tayfa başçısı kimi fəaliyyəti ilə bağlı antik mənbələrdə verilən məlumatlar, Siraq sözünün birinci komponentdəki sir sözünün sırdərya hidronimində mühafizə olunması və onun daşıdığı müxtəlif mənalar öz şərhini tapmışdır. Bununla da ən qədim türkmənşəli Sir-Siraq şəklində işlənmiş toponimin ümumtürk dillərinin fonetikası üçün qanunauyğun xüsusiyyət hesab edilən səsdəyişmələri izah edilir və yaranan sözlərin Ermənistanda və digər ərazilərdə yayılma arealları müəyyənləşdirilir. Təhlillərdən aydın olur ki, siraqlar /sirlilər toponimi eradan əvvəlki dövrlərdə heç bir şəkilçi qəbul etmədən “sir” şəklində işlənmiş, sonralar isə antroponimə çevrilərək tayfa xalq adına transformasiya olunmuşdur. Əsərdə “Hay” və erməni tayfa adlarının tarixi əsərlərdə sinonim variantlar şəklində işlənən bir yadelli etnik qrup olması haqqında da məlumat verilir. Qeyd edilır ki, hayların eradan əvvəlki minilliklərdə ana vətəni Balkan yarımadası, Hindistan, digər bir versiyaya görə isə Hay erməniləri Avropadan İran farsları tərkibində Qafqaza qul şəklində gətirilmişdir. Əsərdə Hind-İran tayfalarının bu əraziyə gəlməsi, yayılma coğrafiyası tarixi mənbələr əsasında aydınlaşdırılır. Tarixi mənbələrə əsaslanaraq göstərilir ki, Azərbaycanın tarixi torpaqlarına bir çox etnik qruplar, etnoslar gəlmiş və orada məskunlaşmışdır. Beləliklə, Artaşat, Ararat, Artiz, Artuş Hayastan, Ayaslı, Ayarlı, Ayrım//Ayrum, Naxçıvan, İrəvan, Mincivan, Bəcirəvan, Təngivan, Sirak, Çirak, Zirik, Sır Dərya, “Hay, Armini, “Kuti//quti”, qəmər//qamər//kimmer etnonimi və ondan törəmiş Qəmərli, Qamarlı, Qomarlı, Kəmərli, Komarlı, Kəngər, Qıpçaq, Çəpni, Xalac, Kayalı toponimləri, “Əkərək” coğrafi termini əsasında formalaşmış Əkərək tapı, Hüseyn əkərəyi, Əkərək yamacı, Əkərək dərəsi mikrotoponimləri, Tapantağ, Sovsırt, Sallı, Zəngəzur, Şəki Turşalı, Keşkənd, Ağudi, Axura, Alagöz, Ələyəz, Göyabbas, Göyçə toponimləri, eləcə də paleodialekt və şivə elementlərinin linqvistik xüsusiyyətləri təhlil olunmuşdur. Arpava, Abaran, Qaşqa, Qızqala, Zeyvə türk-Azərbaycan mənşəli toponimlərin paralelləri müəyyənləşdirilmiş və İndiki Ermənistanda Azərbaycan mənşəli paleotoponimlərdə baş vermiş fonetik hadisələr abidələrdəki toponimlərlə müqayisə edilərək linqvistik xüsusiyyətləri şərh olunmuşdur. Azərbaycan Respublikasının müxtəlif bölgələrində, Cənubi Azərbaycanda, Gürcüstanda, Şimali Qafqazda, Mərkəzi və Orta Asiyada, Əfqanıstanda, hətta Şərqi Avropada da rast gəlməsi mənbələr əsasında təyin

edilmiş, bu toponimlərin türkmənşəli adlar olduğu abidələr əsasında sübuta yetirilmişdir.

Əsərdə Qərbi Azərbaycanda rəng bildirən paleotoponimlərin formalaşma və yaranma tarixi, onların struktur-semantik xüsusiyyətləri, yaranma üsulları tarixi-linqvistik baxımdan təhlil olunmuşdur. Qeyd edilir ki, "Ağ" komponentli paleotoponimlərin türkçülük kontekstində tədqiqi böyük əhəmiyyət daşıyır. Türk mənşəli mikro və makro toponimlərin bir çoxu arxaik məna çalarlarını özündə qoruyub saxlamışdır. Əsərdə ağ tərkibli toponimlərin semantik təhlili göstərir ki, yer-yurd adlarını bildirən sözlərə artırılaraq toponimlərə çevrilmə prosesi baş vermişdir. Mənbələrdən verilən faktlar əsasında əsaslandırılır ki, eradan əvvəlki dövrlərdə "ağ/ak" şəklində işlənən sözlər semantik cəhətdən genişlənərək bir sıra toponimləri yaratmışdır.

Ümumişlək sözlərin onomastik vahidlərə çevrilməsi ümumtürk leksikasında toponimik sistemin zənginləşdirən əsas modellərdən biridir. Buna görə də "ağ" komponentli toponimlər Azərbaycan onomastik sistemində toponim qruplarının yaranmasında fəal iştirak etmiş və türk dillərinin qrammatik, semantik resursları arasında təşəkkül tapmışdır. İndiki Ermənistanda Azərbaycan mənşəli "al" və "ala" komponentli toponimlərinin izahı verilmiş, mənbələr əsasında ermənilər tərəfindən dəyişdirilməsi verilmişdir. Araşdırmalardan aydın olur ki, "al" və "ala" sözləri toponimiyada əsas etibarı ilə oronimik vahidlərdə öz əksini tapmış və tarixin müxtəlif zamanlarında həmin komponentli dərə və dağ adları etnitoponimə transfer edilmişdir. Eləcə də əsərdə qara komponentli toponimlərin oronimik, hidronimik vahidlərə transformasiyası və mənşəyi aydınlaşdırılmışdır. Bununla da Qərbi Azərbaycanda rəng bildirən sözlər əsasında formalaşmış "ağ" komponentli Ağbaba, Ağbud, Ağbulaq, Ağveys, Ağdaban, "al" və ala" komponentli türkmənşəli toponimlərdən Alavar, Alakuk, Alakilsə, Alagöz, Alapapax, Alapars, "qara" komponentli Qaraarxac, Qarabulaq, Qaravəng, Qaradağ toponimləri, "sarı" sözündən yaranan Sarıyoxuş, Sarıyal, Sarıtəpə, Sarıcalar paleotoponimləri linqvistik-etimoloji təhlilə cəlb edilmişdir. Qeyd edilir ki, digər toponimik qruplar kimi qara komponentli yer-yurd adlarını bildirən etnotoponimlər tarixən türkdilli xalqların yaşadıqları ərazilərdə işlənmişdir.

**Nəticə/Conclusion**

Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, Qərbi Azərbaycanın türkmənşəli paleotoponimləri yarandığı dövrlərdən fərqli olaraq, müxtəlif dövrlərdə fonetik, leksik-semantik, struktur baxımından dəyişmələrə səbəb olmuşdur. Toponimlərin linqvistik təkamülü ilə bağlı olaraq müxtəlif məna

çalarları yaranmış, bu xüsusiyyətlər ümumtürk dillərinin inteqrasiyasına və paleodialekt yaruslarına da güclü təsir göstərmişdir. Tarixi qaynaqlara əsaslanaraq qərbi Azərbaycan asların, suvarların, bulqarların, peçeneklərin, utilərin, xəzərlərin, kəngərlərin, qarqarların yaşadıqları qədim bir yurd yeri olması toponimlər vasitəsi ilə sübut edilmişdir. Beləliklə, əsərdə Qərbi Azərbaycan türk mənşəli paleotoponimləri fonetik, leksik, qrammatik istiqamətdə təhlil edilərək ümumtürk dillərində onların paleodialekt yarusları müəyyənləşdirilmişdir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Bayramov, İ. (2005). Qərbi Azərbaycanın toponimlər sistemi. – Bakı: “Elm”.
2. Eyvazova, R. Mahmud Kaşğarinin “Divani-lüğət-it-türk” əsərindəki bir neçə etnonim və toponimlərin arealları // “Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti-tarixi problemləri” III Respublika elmi-nəzəri konfransının materialları. – Bakı: “Örnək”.
3. Əhmədov, T. (1991). Azərbaycan toponimikasının əsasları. – Bakı: Bakı Universiteti nəşriyyatı.
4. Hüseynova, M. (2023). Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili. – Bakı: ADPU nəşriyyatı.
5. Qərbi Azərbaycan şivələrinin leksikası (2011). – Bakı: “Elm və təhsil”.